# *Azərbaycan XİN rəhbəri:* "30 ildən sonra ilk dəfə olaraq Ermənistanla sülhə şərait yaranıb"

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Marketa Pekarova Adamova ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı iki ölkə arasında qarşılıqlı səfərlər, davamlı siyasi dialoq, həmçinin parlamentlərarası əməkdaşlığın önəmi vurğulanıb. Eyni zamanda "ikitərəfli iqtisadi münasibətlərin, xüsusilə də enerji, "yaşıl iqtisadiyyat", turizm, kənd təsərrüfatı, təhsil, qarşılıqlı sərmayə qoyuluşu və digər istiqamətlər üzrə əməkdaşlıq perspektivlərindən danışılıb.

Ceyhun Bayramov Azərbaycan tərəfindən ətraf mühitin mühafizəsi, bərpaolunan enerji mənbələrinə keçid üzrə



görülən tədbirləri, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ölkəmizin evsahibliyi və bu sahədəki beynəlxalq öhdəliklərinə verdiyi önəmi qeyd edib.

Bununla yanaşı, ölkəmizin nəqliyyat potensialı və Orta Dəhlizin inkişaf perspektivləri, Cənubi Qafqaz və Mərkəzi Asiyadan keçməklə önəmli beynəlxalq nəqliyyat marşrutlarından olduğu diqqətə çatdırılıb.

Ceyhun Bayramov Azərbaycanın Aİ və üzv dövlətlərin etibarlı tərəfdaşı olduğunu, ölkəmizə qarşı ikili standartların tətbiqinin və ədalətsiz yanaşmanın sərgilənməsinin regionda dayanıqlı sülhün qurulmasına töhfə vermədiyini vurğulayıb. O, həmçinin Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan qərarın qəbul edilməsini və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini bildirib.

Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan və Ermənistan arasında 30 ildən sonra ilk dəfə olaraq sülh üçün real şərait yaranıb. Nazir Avropa İttifaqı və bəzi üzv dövlətlər tərəfindən hər hansı ad altında Ermənistana hərbi yardım göstərilməsinin və ya Ermənistana havadarlıq etməklə sülh prosesindən yayındırılmasının Cənubi Qafqaz regionunda dayanıqlı sülhün qurulmasına xələl gətirəcəyini vurğulayıb.

Görüşdə iki ölkə arasında gündəlikdə duran digər aktual məsələlər və qarşılıqlı maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılıb.